**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 6/3

Bakı şəhəri 5 fevral 2020-ci il

AMEA-da xaricdə fəaliyyət göstərən Azərbaycan
Əsilli Alimlərin Assosiasiyasının yaradılması haqqında

Elmi potensialın qorunması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasətin mühüm istiqamətlərindən birini təşkil edir. Bu baxımdan elmi potensialın inkişafı və ondan səmərəli istifadə olunması Azərbaycan dövlətinin və cəmiyyətinin qarşısında duran əsas vəzifələrdən biridir.

Ölkələrarası əlaqələrin sürətli inkişafı, dünyada qlobal problemlərin mövcudluğu və elmi inteqrasiyanın getdikcə daha da genişlənməsi alimlərin ortaq fəaliyyətini şərtləndirir. Ölkənin akademik, təhsil, biznes və vətəndaş cəmiyyəti sektorlarında çalışan alim və tədqiqatçılarla yanaşı, xarici ölkələrdə yaşayan Azərbaycan əsilli alimlər arasında qarşılıqlı münasibətləri inkişaf etdirmək AMEA-nın əsas fəaliyyət istiqamətlərindən biridir.

Hazırda dünyanın bir sıra nüfuzlu elmi qurumlarında və ali təhsil müəssisələrində müxtəlif elm sahələrini təmsil edən çoxsaylı Azərbaycan əsilli görkəmli alimlər fəaliyyət göstərir. Təhlillər göstərir ki, onlarla səmərəli elmi əməkdaşlıq əlaqələrinin qurulması Azərbaycan elminin yeni prioritetlərinin müəyyənləşdirilməsində, tədqiqatların müasir dünya standartları səviyyəsinə yüksəldilməsində, yüksəkixtisaslı kadr hazırlığında, beynəlxalq elmi təcrübənin Azərbaycan elminə tətbiqində olduqca faydalı ola bilər. Bu baxımdan həmin alimlərlə elmi əlaqələr qurmaq, onların elmi potensialından və zəngin təcrübəsindən məqsədyönlü istifadə etmək üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruridir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Milli Elmlər Akademiyasında xaricdə fəaliyyət göstərən Azərbaycan Əsilli Alimlərin Assosiasiyası yaradılsın.
2. AMEA-nın birinci vitse-prezidentləri akademik İsa Həbibbəyliyə və akademik İbrahim Quliyevə tapşırılsın ki, Assosiasiyanın fomalaşdırılması və fəaliyyəti ilə bağlı

təkliflər, həmçinin zəruri hüquqi-normativ sənədlər hazırlanıb AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.

3. AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinə (Esmira Əlirzayeva) tapşırılsın ki, Elm və təhsil baş idarəsi (Fail Kazımov) və AMEA-nın elmi bölmələri ilə birlikdə xaricdə fəaliyyət göstərən Azərbaycan əsilli alimlər haqqında məlumat bazası hazırlanıb AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.

AMEA-nın prezidenti akademik Ramiz Mehdiyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARAT PROTOKOL ŞÖBƏSİ

AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü Əminağa Sadıqov